# Zəfərin siyasi anatomiyası

**8** noyabr 2020-ci il müasir Azərbaycan tarixinə təkcə hərbi qələbə deyil, həm də uzun illər boyu davam edən siyasi, diplomatik və mənəvi mübarizənin zirvəsi kimi həkk olundu. Zəfər Günü Azərbaycanın milli yaddaşında əzəli və əbədi torpaqların azad olunması ilə yanaşı, həm də dövlət iradəsinin, milli birliyin və siyasi uzaqgörənliyin qələbəsi kimi dəyərləndirilir.

Sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsinə gətirib çıxaran proseslər illərlə formalaşan ədalətsiz beynəlxalq münasibətlər sisteminin və ATƏT-in keçmiş Minsk qrupunun fəaliyyətsizliyinin nəticəsi idi. 1994-cü ildən sonra danışıqlar masasında Azərbaycanın səbrinə, beynəlxalq hüquqa sadiqliyinə baxmayaraq, Ermənistan işğalçılıq siyasətini davam etdirirdi. Minsk qrupu isə mandatına zidd olaraq, münaqişənin həllinə deyil, status-kvonun qorunmasına xidmət edən bir mexanizmə çevrilmişdi. İkili standartlar, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin 30 il ərzində icra edilməməsi, beynəlxalq hüququn selektiv tətbiqi və Azərbaycanın suveren hüquqlarına qarşı laqeydlik regionda sülh və sabitliyi mümkünsüz etmişdi. Bu vəziyyətdə Ermənistan rəhbərliyi təxribatlara əl atmaqla yeni müharibəyə hazırlaşır, işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşma, infrastruktur dəyişiklikləri və mədəni irsin dağıdılması kimi barbar addımlar atırdı. Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra sülh ritorikasını kənara qoyaraq açıq şəkildə "Qarabağ Ermənistandır" kimi sərsəm bəyanatlarla regionda gərginliyi artırdı.

Ermənistan rəhbərliyi bir məqamı düzgün qiymətləndirə bilmədi. Bu, 2000-ci illərin əvvəllərindən başlayaraq Azərbaycanın dövlətçilik fəlsəfəsi, iqtisadi potensialı və hərbi gücünün tamamilə yeni mərhələyə qədəm qoyması ilə bağlı idi.

Prezident İlham Əliyevin qətiyyətli siyasi kursu Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş, regional güc və siyasi nüfuz mərkəzi kimi formalaşmasını təmin etdi. Dövlət başçısı uzun illər ərzində diplomatik arenada həm danışıqlar masasında, həm də beynəlxalq tribunalarda Azərbaycanın haqlı mövqeyini sistemli şəkildə müdafiə etdi. 2019-cu il oktyabrın 3-də Rusiyanın Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunda Prezident İlham Əliyevin səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida" ifadəsi təkcə siyasi bəyanat deyildi - bu, dövlətin dəyişməz mövqeyinin dünyaya açıq mesajı, həm də diplomatik mübarizənin başlanğıc nöqtəsi oldu. Bu cümlə, əslində, diplomatiyanın hərbi qələbəyə çevriləcəyinin xəbərçisi idi. Sonradan xalq üçün şuara çevrilən bu sözün səsləndirildiyi gündən təxminən bir il sonra - 2020-ci ilin 4 oktyabr tarixində Ali Baş Komandan xalqa müraciət edərək "Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!" deyərək, "Qarabağ Azərbaycandır!" ifadəsinin artıq yalnız siyasi deyil, hərbi və tarixi reallığa çevrildiyini bütün dünyaya bəyan etdi.

Müharibə dövründə Prezident İlham Əliyevin apardığı informasiya və diplomatik mübarizə hərbi cəbhədəki savaş qədər əhəmiyyətli idi. Dünyanın ən nüfuzlu media orqanlarına - CNN, BBC, "Əl-Cəzirə", TRT, "Euronews" və digər kanallara verdiyi müsahibələr vasitəsilə dövlətimizin başçısı təkcə Azərbaycanın haqq səsini dünyaya çatdırmadı, həm də informasiya müharibəsində tam üstünlük qazandı. Dövlət başçısının hər çıxışı Ermənistanın yalan üzərində qurulan təbliğatını ifşa edir, beynəlxalq ictimaiyyəti reallıqlarla tanış edirdi. Bu, siyasi liderin qətiyyətinin və intellektual üstünlüyünün təntənəsi idi.

Diplomatik mübarizənin nəticəsi olaraq, Azərbaycanın tarixi torpaqlarının bir qismi hərbi əməliyyata ehtiyac qalmadan azad edildi. Ağdam, Kəlbəcər və Laçın rayonlarının döyüşsüz qaytarılması məhz Prezident İlham Əliyevin apardığı siyasi təzyiq və beynəlxalq diplomatiya nəticəsində mümkün oldu. Bu, XXI əsrin ən unikal diplomatik qələbələrindən biri kimi tarixə düşdü. Hərbi qüdrətlə siyasi müdrikliyin vəhdəti sayəsində Azərbaycan dövləti həm döyüş meydanında, həm də masa arxasında qalib gəldi.

44 günlük müharibə Azərbaycanın təkcə torpaqlarını deyil, həm də milli qürurunu, tarixi ədalətini və beynəlxalq nüfuzunu bərpa etdi. Şuşanın azad olunması ilə nəticələnən bu qəhrəmanlıq dastanı Azərbaycanın siyasi liderliyinin, xalqın birliyinin və ordunun peşəkarlığının təcəssümü oldu. 8 Noyabrda əldə olunan qələbə həm də beynəlxalq münasibətlərdə yeni mərhələnin başlanğıcı idi. Belə ki, artıq regionda güc balansı dəyişmiş, reallıqları diktə edən yeni mərkəz formalaşmışdı.

Zəfərdən sonra regionda yaranan yeni siyasi düzən Azərbaycanın diplomatik fəallığı ilə səciyyələnir. Ermənistan kapitulyasiyadan sonra yeni reallıqları qəbul etməyə məcbur oldu. Azərbaycan isə qalib dövlət kimi sülh təşəbbüsləri irəli sürdü, Cənubi Qafqazda dayanıqlı əməkdaşlıq və iqtisadi inteqrasiyanın əsaslarını qoydu. Zəngəzur dəhlizi, nəqliyyat və enerji layihələri, regional təhlükəsizlik mexanizmləri kimi təşəbbüslər Azərbaycanın artıq təkcə hərbi deyil, həm də siyasi, iqtisadi və humanitar liderliyini nümayiş etdirdi.

8 Noyabr təkcə Qələbə bayramı deyil, həm də dövlət düşüncəsinin, strateji idarəetmənin və milli ideologiyanın uğur günüdür. Azərbaycan dövlətçiliyi bu zəfərlə öz tarixində yeni bir mərhələyə qədəm qoydu. Artıq Azərbaycan regionun sabitlik və inkişaf mərkəzinə çevrilib. Qarabağ və Şərqi Zəngəzur hazırda investisiya mərkəzi rolunu oynayır. Quruculuq və inkişaf, yeni texnologiyaların tətbiqi ilə müasir infrastrukturun qurulması, məcburi köçkünlərin öz doğma el-obasına qayıtmaları, avqust ayında sülh müqaviləsinin paraflanması Azərbaycanın regional siyasətdə lider mövqeyini möhkəmləndirir, ölkənin ərazi bütövlüyü və suverenliyinin qorunması istiqamətində strateji addımların, həmçinin davamlı sülh və iqtisadi inkişafın təmin olunmasının açıq göstəricisidir.

Zəfərin siyasi anatomiyası göstərdi ki, Azərbaycanın qələbəsi təsadüfi deyildi. Bu, illərlə davam edən planlı siyasətin, xalqın inamının və liderin uzaqgörənliyinin nəticəsi idi. Tarix sübut etdi ki, ədalət gec də olsa, mütləq şəkildə bərqərar olur. Məhz 8 Noyabr tarixi bu günün və sabahın Azərbaycanı üçün həmin ədalət anlayışının bərqərar olduğu gündür.

***Mirtəhmasib RƏHİMOV,***
***Lerik rayonu***

Azərbaycan. - 2025.- 9 noyabr (№ 240).- S.17.